**Türkən Xəlil qızı MUSAYEVA**
Azərbaycan Milli Konservatoriyası "Musiqinin tarixi və nəzəriyyəsi" kafedrasının müəllimi
E-mail: shoray@mail.ru
ORCID ID: 0000-0003-1357-3636

# AZƏRBAYCAN MƏDƏNİYYƏTİNDƏ LƏZGİ ETNİK QRUPUN FOLKLOR MUSİQİSİ

**Xülasə:** Azərbaycan Respublikasında yaşayan və etnik azlıq təşkil edən ləzgilərin mədəniyyətini və xalq musiqi ənənələrini öyrənmək vacibdir. Buna görə də, məqalənin əsas məqsədi ləzgi xalqının qədim ayinlərini və istifadə olunan musiqinin xüsusiyyətlərini, xüsusən mahnı və rəqsləri öyrənməkdir. Məqalədə, həmçinin azsaylı ləzgi xalqının qədim mərasimlərinin qorunulub saxlanılması, inkişaf etdirilməsi və multikultural dəyərlərin gələcək nəsillərə ötürülməsi haqqında məlumat verilir. Burada ləzgi xalqının əsas milli sərvəti olan "Ləzginka" rəqsinə xüsusi diqqət yetirilir. Məqalədə ləzgi mərasimlərinin, ənənələrinin, xüsusilə onların rəqslərinin, "Suvar" rəqs ansamblının qorunub, saxlanılmasında müəyyən rol oynamış bir sıra musiqiçilər, o cümlədən Qotfrid Həsənov haqqında məlumatlar verilir.
**Açar sözlər**: *ləzgi, folklor, bayram adət-ənənələri, rəqs.*

**UOT:** 78
**DOI:** 10.54414/zgiz6292

## Giriş

Azərbaycan Respublikası artıq uzun illərdir ki, sülh və harmoniya şəraitində yaşayan müxtəlif azsaylı xalqların və etnik qrupların yaşayış məskəninə çevrilmişdir. Çoxmillətli ölkə olan Azərbaycan etnik rəngarəngliyi və tolerantlığı ilə burada yaşayan etnik xalqların mədəni mərkəzinə çevrilmişdir. Belə xalqlardan biri olan ləzgilər özünə məxsus tarixi, mədəniyyəti, adət-ənənələri ilə digər etnik qruplardan fərqlənir. Ləzgi xalqı haqqında ilk tarixi məlumatlara X əsrin əvvəllərində yazılmış "Axtınamə" əsərində rast gəlinir. Orta əsrlərə aid tarixi mənbələrdə də ləzgi xalqı haqqında olan məlumatlarla qarşılaşmaq mümkündür. Maraqlı olan budur ki, tarixən mövcud olan etnik qruplar müəyyən təsir altında öz mədəniyyətlərindən uzaqlaşsalar da, ləzgilər qədim adət-ənənələrini, müxtəlif mərasimlərini qoruyub saxlamağa nail olmuşlar. Azərbaycanda yaşayan ləzgilər əsasən Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən, Qəbələ, Oğuz, İsmayıllı və digər bölgələrdə yaşayırlar. Ləzgilərin ən sıx məskunlaşdığı ərazilərdən biri də Bakı və Sumqayıt şəhərləridir. Lakin hansı ərazidə yaşamaqlarından asılı olmayaraq, ləzgilər qədim adət ənənələrini qoruyaraq gələcək nəsillərə çatdırmağa çalışırlar.

## Ləzgi Xalq Mərasimləri

Ləzgilərin qoruyub saxladıqları adətlərdən biri də onların milli bayramlarıdır. Ənənələrə bağlı olan ləzgi xalqının bir neçə bayramı indiki dövrə kimi saxlanılır və müəyyən ərəfələrdə bu bayramlarla bağlı mərasimlər keçirilir.

Ləzgilərin qədim bayramlarından biri Bahar bayramıdır. Bahar bayramı ləzgi dilində "Yaran Suvar" adlandırılır. "Yar" ləzgilərin kənd təsərrüfatı ilə bağlı təqvimdə olan aylardan birinin adıdır və martın 21-dən aprelin 4-ə qədər davam edir.

"Yar" sözü digər mənada qırmızı mənasını verir ki, bu da bayram mərasimi zamanı bəzənən süfrələrin qırmızı rəngdə olması ilə bağlıdır. Ləzgilər adətən toy mərasimlərini, el şənliklərini "Yar" ayında keçirməyə çalışırmışlar. Onu da qeyd edək ki, həmin adət indi də saxlanılır və ləzgilər bu ənənəni davam etdirməyə çalışırlar. "Yaran suvar" kəndlərdə xüsusi təntənə ilə keçirilirmiş və hazırda da bu adət saxlanılır. Onu da qeyd edək ki, ləzgilərin sıx yaşadığı bir çox ərazilərdə, xüsusilə də Quba və Qusarın kəndlərində, eləcə də Qəbələ rayonunun kənd yerlərində bu adət saxlanılmışdır. Eyni zamanda burada ləzgi mifologiyası ilə bağlı adətlər də nəzərə çarpır. Təbii ki, bütün bu mərasimlər ləzgi xalqının müxtəlif xarakterli mahnı və rəqsləri ilə müşayiət olunur.

## "Vatsrakar" adlı xalq mərasimi

"Vatsrakar" adlı xalq mərasimi də ləzgilərin müxtəlif musiqi nümunələri əsasında keçirilən mərasimlərinə aiddir. Ləzgi xalqının qədim inanclarını özündə əks etdirən "Vatsrakar" adlı mərasimin əsas məzmununu Aya və Günəşə

olunan müraciətlər və onların tərif edilməsi təşkil edir. Bu mərasim ləzgilərin kollektiv şəkildə oxuma ənənələrini də formalaşdırmışdır. Belə ki, mərasim iştirakçılarının, xüsusilə də qızların və oğlanların kəndin içindən keçərək mahnı oxumaları ləzgi xalqının nümayəndələri arasında birliyi və həmrəyliyi nümayiş etdirir.

**"Çiçək" bayramı**

Ləzgilərin "Çiçək" bayramı əsasən kənd əhalisi tərəfindən qeyd edilən mərasimlərə aiddir. Ləzgilərin yaşadığı bir çox ərazilərdə keçirilsə də, əslində "Çiçək" bayramının vətəni Dağıstan Respublikasının Axtı rayonunun Cəbə kəndidir.

Bu bayram mərasiminin əsas xüsusiyyəti müxtəlif şəfalı çiçəklərin toplanması olsa da, əslində mahnı və rəqs yarışması mərasimin ən maraqlı hissəsini təşkil edir. Belə ki, qızlarla oğlanlar bir yerdə mərasim mahnıları ifa edərək, rəqs yarışları keçirirlər.

**İlk şırım bayramı**

Ləzgilərin daha bir xalq bayramı olan ilk şırım bayramı əsasən bahar aylarında qeyd olunur. Əkinçilik, xüsusilə də şumlama mərasimi ilə bağlı olan bu bayramda hər bir kəs əkinçi mahnısı, yəni havar oxuyur. Ləzgi folklorunun bir növü olan, kənd yerlərində geniş yayılmış havarları bir solist ifa edir, digərləri isə xor şəklində onları müşayiət edir. Bəzən bu bayrama "ilk sünbül", "ilk dərz", "peçxur bayramı" da deyirlər. Bu mərasimdə alqışlar, xeyir-dua ilə bağlı mahnılar üstünlük təşkil edir. Ləzgilər bu mərasimi çox sevirlər. Zurna və nağaranın gur sədaları altında mahnı mərasimini rəqs çalğısı əvəzləyir.

**"Peşaray" bayramı**

Xalq oyunları ilə müşayiət olunan, kollektiv şəkildə ifa olunan mahnılarla zəngin olan "Peşaray" bayramı qədim teatr ünsürləri ilə zəngindir. "Peşaray" əvvəlki dövrlərdə kişilərdən ibarət olan tamaşalar şəklində mövcud olmuşdur. İnanclarla bağlı olan bu mərasimdə ifa olunan mahnıların əsasını bərəkət, bolluq istəmə, insanların təbiət qüvvələrinə olan arzusu təşkil edir. Xüsusilə, bu mərasimin əsasını kiçik yaşlı oğlan uşaqlarının oxuduğu "Quni" mərasimi təşkil edir. "Quni" əsl mahnı yarışması xarakterinə malik idi. Bu mərasimdə hər bir uşaq bildiyi mahnıları ifa edirdi. Hətta uşaqların biri o birinin oxuduğunu tamamlamalı- dir. Ləzgi adətində bu mərasim oğlan uşaqlarının qəhrəmanlıq ruhunun formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

Çünki hər bir kəs oxuduğu mahnıya uyğun şəkildə sanki özünü qəhrəman kimi təqdim etməyə çalışırdı.

**"Alapex" mərasimi**

"Alapex" mərasimi isə "Peşəpay" mərasiminin əksidir və qadınların iştirakı ilə təşkil olunur. Qədim ləzgilərin təsəvvürlərinə görə, bu mərasim Günəşin çağırılması inancı ilə bağlıdır. Bu mərasim daha çox yay aylarında icra olunur və isti mövsümlərlə bağlıdır. Ləzgi mərasimlərinin tədqiqatçısı Dadaş Əliyev yazır: "Ləzgilərin folklorunda mərasimlər, epik və lirik növə aid nümunələr əsas yer tutur. Ləzgilərin mərasim folkloruna mövsum və məişət mərasimləri daxildir" (Eliyev, 2020, p. 129). Ləzgi xalqının qədim mərasimlərini nəzərdən keçirərkən bir mühüm xüsusiyyət diqqəti cəlb etdi. Bu, ləzgi xalqının mədəni irsində rəqslərin üstünlük təşkil etməsinin müşahidə olunmasıdır. Qədim mərasimlərdə mahnılar xalqın arzu və istəklərini, hər hansı bir işə münasibətini ifadə etsə də, rəqslər ləzgi xalqının mental dəyərlərinin göstəricisi kimi şərh oluna bilər. Hətta rəqslərin üstünlüyü ləzgi xalqını Azərbaycanda yaşayan digər xalqlardan fərqləndirən əsas xüsusiyyət kimi dəyərləndirilə bilər. Nəzərdən keçirilən qədim mərasim ənənələrində də rəqslərin ləzgi xalqının həyat tərzində, məişətində əsas yer tutduğunu müşahidə etmək mümkündür. Rəqslər ləzgi xalqının keçmişinin, adət-ənənələrinin göstərici kimi qəbul oluna bilər.

**"Ləzginka" rəqsi**

Ləzgilərin rəqsə olan məhəbbəti Azərbaycanda yaşayan heç bir xalqda müşahidə olunmur. "Ləzginka" rəqsi isə ləzgiləri bütün dünyada xarakterizə edən əsas musiqi nümünəsidir. Bu rəqsi ifa edərkən ləzgilər öz hiss və həyəcanlarını, rəqsin melodiyasına olan münasibəti müxtəlif sözlərlə ifadə edirlər. Musiqiyə uyğun olan hərəkətlər nümayiş etdirən ləzgilər "assa" sözünü işlədərək, öz emosiyalarını nizamlamağa çalışırlar.

"Ləzginka" digər xalqların rəqs nümunələri ilə müqayisə edildikdə şux və dinamikliyi ilə diqqəti cəlb edir. Plastiklik, cəldlik, çeviklik, coşğunluq, fəallıq, iti hərəkətlərin bir-birini əvəzləməsi "Ləzginka" rəqsi üçün səciyyəvidir. "Ləzginka" rəqsinin tam yaranma tarixi məlum

olmasa da, ləzgiləri xarakterizə edən əsas musiqi nümunəsi kimi onun qədim köklərə malik olması fikrini irəli sürmək mümkündür. Hətta bəzən digər cəld templi ləzgi rəqslərini də melodiyasının gözəlliyinə və iti ritmlərinə görə "Ləzginka" adlandırırlar. "Ləzginka" rəqsi şux melodiyaya malik olmaqla bərabər, həm də döyüşkən və səfərbəredici gücə malikdir. Məhz qəhrəmanlıq elementlərinə və iti ritmik fiqurasiyalarına görə "Ləzginka" rəqsini keçmiş zamanlarda döyüşə gedənləri yola salma mərasimində də istifadə edirdilər.

Qeyd etmək lazımdır ki, "Ləzginka" rəqsinin geniş vüssət alması Avropa ilə Qafqazı birləşdirən ticarət yollarının qədim zamanlarda bu ərazidən keçməsi ilə də əlaqədardır. Buralardan keçən səyyahların "Ləzginka" rəqsinin sürətli tempinə, çevikliyinə heyran qalması və elə bundan irəli gələrək öz ölkələrinə qayıtdıqdan sonra bundan bəhs etmələri "Ləzginka" rəqsinin geniş yayılmasına səbəb olmuşdur. "Ləzginka" rəqsinin musiqisi, aydın ritmik quruluşa malik olması və enerjili hərəkətlərlə ifa olunması bir çox bəstəkarların bu rəqsin xüsusiyyətlərindən istifadə olunmasını şərtləndirmişdir. Təsadüfi deyildir ki, rus bəstəkarı M.İ.Qlinkanın "Ruslan və Lyudmila" operasında IV pərdədə "Şərq rəqsləri"ndən birini "Ləzginka" rəqsi təşkil edir. Eləcə də digər rus bəstəkarı A.Rubinşteynin "Demon" operasında məzmundan asılı olaraq, "Ləzginka" rəqsinin elementlərindən istifadə edilmişdir. Xüsusilə A. Rubinşteynin "Ləzginka" rəqsi cəld və emosional melodik musiqi dilinə malikdir.

"Ləzginka" rəqsinin xüsusiyyətlərindən bəhs edərkən, qeyd etmək lazımdır ki, Azərbaycanda ilk dəfə olaraq, professional musiqimizin banisi Üzeyir Hacıbəylinin yaradıcılığında "Ləzgi rəqsi" adlı musiqi nümunəsinə rast gəlinir və əsər partitura şəklində mükəmməl bir tərzdə işlənilmişdir. Onu da qeyd edək ki, Üzeyir Hacıbəylinin 125 illiyinə həsr olunmuş Beynəlxalq Musiqi Festivalı çərçivəsində bəstəkarın "Ləzgi rəqsi"nin ilk nəşrinin təqdimat mərasimi də keçirilmişdir. Ü.Hacıbəylinin "Ləzgi rəqsi" ləzgi xalqının mərasimlərinə xas olan intonasiyalarına və rəqslərdə olan ritmik fiqurasiyalara əsaslanır. Bu baxımdan musiqişünas Aytac Rəhimovanın fikirləri diqqətəlayiqdir. "Müxtəlif folklor ənənələrində sistemin dominant prinsipləri fərqlidir. Musiqi sistemi təzahürlərində vahid olsa da - səs, ton, rejim, intonasiya, ritm, forma və s. fərqlidir. Məhz janr göstəricilərinin bu və ya digər üstünlük təşkil etməsi, eləcə də onların qarşılıqlı əlaqəsi xalq musiqisinin milli xüsusiyyətlərini müəyyən edir" (2, 108).

**Ləzgi rəqslərinin nota köçürülməsi**

Ləzgi xalqının rəqslərə olan isti münasibətinin təsiridir ki, nota köçürülən ilk nümunələr də rəqslərlə bağlı olmuşdur. Zəngin melodik dil və ritmik fiqurasiyaların müxtəlifliyinə əsaslanan ləzgi rəqsləri professional musiqiyə ləzgi və Dağıstan xalqlarının rəqs sənətinin xüsusiyyətlərini qoruyub saxlayan və bunu gələcək nəsillərə ötürən Qotfrid Həsənovun sayəsində nota köçürülmüşdür. Qotfrid Həsənov 1925-ci ildə 126 ləzgi xalq melodiyasını, 1927-ci ildə o, zurna ilə ifa olunan 12 "Ləzginka"nı lentə köçürərək qorunub saxlanılmasına nail olmuşdur. 1948-ci ildə çap etdirdiyi "100 Dağıstan havası" adlı antologiyaya Q. Həsənov çoxlu sayda rəqs havasını daxil etmişdir. Məşhur "Ləzginka" rəqs ansamblının bədii rəhbəri Zeynal Hacıyev 1959-cu ildə "30 ləzgi xalq rəqsi" adlı toplunu nəşr etdirərək, rəqslərin qorunmasına nail olmuşdur. Ləzgi bəstəkarı Fətullah Rəhimxanov ləzgilərin 79 xalq mahnısını və 23 rəqsini nota köçürüb.

**"Suvar" mahnı və rəqs ansamblı**

Hazırki müasir dövrdə ləzgi rəqs ənənələri 1996-cı ildə əsası qoyulan "Suvar" mahnı və rəqs ansamblının sayəsində yaşadılır. Bu ansambl Bakı şəhərində yaradılsa da, ləzgilərin yaşadıqları bölgələrdən çoxlu sayda milli xalq mahnı və rəqslərini toplamış və öz repertuarlarına daxil etmişdir. "Suvar" sözü ləzgi dilində bir neçə mənada işlənilir. Amma əsas ifadəsi xoş əhval-ruhiyyə, gözəllik, məhəbbət anlayışı mənasını verir. Ansamblın repertuarında ləzgi xalqını təmsil edən bəstəkarların yaradıcılığı əsas yer tutur. Bu baxımdan bəstəkar Sədaqət Kərimovaya məxsus olan çoxlu sayda mahnı ifa edilir ki, bunlar da ləzgi xalqının musiqi elementlərinə əsaslanaraq yazılmışdır. Əvvəlcə həvəskar rəqs məktəbi kimi yaranan "Suvar" artıq professional kollektivə çevrilərək, ləzgi xalqının rəqslərinin özünə məxsusluğunu və milli xarakterini qoruyub saxlayır. Kollektiv bir sıra xarici ölkələrdə, o cümlədən Türkiyədə də konsertlər vermişdir.

**Nəticə**

Müasir dövrdə ləzgilər xalq mədəniyyətini, milli mərasimlərini və rəqslərini qoruyub saxlayır və adət-ənənələrini növbəti gələcək nəsillərə ötürürlər. Ləzgilər Azərbaycanın mədəni həyatında fəal şəkildə iştirak edirlər. Onlar Azərbaycan mədəniyyətinə qaynayıb qarışsalar da, öz mədəni dəyərlərini, mərasim və rəqslərini saxlamışlar. Xüsusilə ləzgilərin kənd yerlərində yaşayan nümayəndələri müxtəlif milli bayramlarda qismən də olsa mərasimlərlə bağlı tədbirləri həyata keçirməyə çalışırlar. "Ləzginka" rəqsi isə artıq bütün ləzgi xalqının istər el şənlikləri, bayramlarda, istərsə də dövlət səviyyəsində keçirlən tədbirlərdə rəmzinə çevrilmişdir. Azərbaycanda yaşayan digər milli azlıqlardan fərqli olaraq, ləzgi xalqının nümayəndələri milli mənsubluqlarını qoruyub saxlayırlar.

Eləcə də ləzgi dilində təhsil almaları və doğma dilinin qorunması onlarda ədəbi dilin də inkişafına təkan verir. Ləzgi şairlərinin şeirlərinin nəşr olunması da bu baxımdan xalqın mədəni irsinin qorunmasına əsaslı sübutdur. Həmçinin, müxtəlif ləzgi milli xalq rəqslərini ifa edən ansamblların, həvəskar rəqs qruplarının yaradılması da bu sahədə mühüm addım kimi dəyərləndirilə bilər.

Beləliklə, Azərbaycanda yaşayan və azsaylı xalq olan ləzgilər xalq yaradıcılıqlarının qorunub saxlanılmasına qarşı çox tələbkardırlar və eyni zamanda digər xalqların folklor nümunələrinə də səmimi şəkildə yanaşırlar. Onlar öz mədəniyyətlərinə həm azərbaycanlıların mədəniyyətlərindən irəli gələn xüsusiyyətləri tətbiq edirlər, həm də öz qədim adət-ənənələrini saxlayırlar. Xüsusilə folklor nümunələri içərisində onlar daha çox rəqslərə üstünlük verirlər ki, bu da xalqın qədim ənənələrindən irəli gəlir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Eliyev, D.A. (2020). İsmayıllı etnomühitindəki ləzgilərin folklor ənənələri [Folklore traditions of the Lezgi in the Ismayilli ethno-environment]. Dede Korkut dergisi, №1, 128-132.
2. Rahimova, A. (2014). Ob izuchenii xudojestvennix svyazey azerbaydjanskoy narodnoy muziki. [About the study of artistic links of Azerbaijani people's music]. Ulakbilge, 2014, Cilt 2, Sayı 4. p. 101-114. https://www.ulakbilge.com/makale/pdf/1414431779.pdf
3. Cavadov, Q.Q. (2000). Azerbaycanın azsaylı xalqları ve milli azlıqları -[Minorities and national minorities of Azerbaijan]. Elm [in Azerbaijani].

**Turken Khalil MUSAYEVA**
*Teacher of the "History and Theory of Music" department of the Azerbaijan National Conservatoire*
E-mail: shoray@mail.ru

## FOLKLORE MUSIC OF LEZGI ETHNIC GROUP IN AZERBAIJANI CULTURE

**Summary:** It is important to study the culture and folk music traditions of the Lezgins, who are an ethnic minority living in the Republic of Azerbaijan. Therefore, the main goal of the article is to study the ancient rites of the Lezgi people and the characteristics of the music used, especially songs and dances. The article also provides information on the preservation and development of the minority Lezgin's ancient ceremonies and transmission of multicultural values to the future generations. Here, special attention is paid to the dance of "Lezginka", which is the main national treasure of the Lezgin people.
The article provides information about a number of musicians, including Gotfrid Hasanov, who played a certain role in the preservation and maintenance of Lezgi ceremonies and traditions, especially their dances, and the "Suvar" dance ensemble.
**Keywords:** *Lezgi, folklore, festive ceremonies, dancing*

**Туркан Халил кызы МУСАЕВА**

*Преподаватель кафедры "История и теория музыки"*
*Азербайджанской Национальной консерватории*
*E-mail: shoray@mail.ru*

**ФОЛЬКЛОРНАЯ МУЗЫКА ЛЕЗГИНСКОЙ ЭТНИЧЕСКОЙ ГРУППЫ В КУЛЬТУРЕ АЗЕРБАЙДЖАНА**

**Резюме:** Важно изучить культуру и народно-музыкальные традиции лезгин, которые являются этническим меньшинством, проживающим в Азербайджанской Республике. Поэтому основной целью статьи является изучение древних обрядов лезгинского народа и особенностей используемой музыки, в частности песен и танцев. В статье также представлена информация о сохранении и развитии древних обрядов малочисленного народа лезгин и передаче поликультурных ценностей будущим поколениям. Здесь особое внимание уделяется танцу «лезгинка», являющемуся главным национальным достоянием лезгинского народа.

В статье приводятся сведения о ряде музыкантов, в том числе о Готфриде Гасанове, сыгравших определенную роль в сохранении и поддержании лезгинских обрядов и традиций, особенно их танцев, и танцевальном ансамбле «Сувар».

**Ключевые слова**: *лезги, фольклор, праздничные обряды, танцы*

**Daxil olub:** 02.07.2021